**Sadələşdirilmiş vergi tətbiq olunmayan gəlirlər (daxilolmalar)**

*Qulu Soltanov,*
sərbəst auditor

Təsərrüfat subyektləri ardıcıl 12 aylıq dövr ərzində vergi tutulan gəlirləri qanunla müəyyənləşdirilən məhdudlaşdırılmış hədd məbləğini aşmadığı halda, vergitutma məqsədləri üçün sadələşdirilmiş vergitutma sistemini tətbiq edə bilərlər.

Sadələşdirilmiş vergi ödəyicilərinin pul hesablarına müxtəlif əməliyyatlar çərçivəsində pul vəsaitləri, həmçinin əşya (əsas vəsait, azqiymətli əşya, material, mal və digər) hesablarına maddi əşyalar daxil ola bilər. Lakin daxil olan vəsaitlər üzrə əməliyyatların xarakteri müxtəlif olduğuna görə, mühasib onların icərisindən sadələşdirilmiş vergiyə cəlb olunanları qanunvericiliyin tələbinə əsasən ayırmağı bacarmalıdır. İlk baxışda sadə səslənən «sadələşdirilmiş vergi» anlayışı səsləndiyi kimi, o qədər də sadə qəbul edilməməlidir.

Ümumiyyətlə, hər hansı vergiyə cəlb olunan əməliyyatı müəyyənləşdirmək üçün ilk növbədə vergitutma obyektini nəzəri cəhətdən mükəmməl anlamaq və Vergi Məcəlləsində vergitutma obyektinə aid maddənin məzmununda leksik mənalara diqqətlə yanaşmaq lazımdır.

Məsələn, Vergi Məcəlləsinin 219.1-ci maddəsində «təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın həcmi» ifadəsində «təqdim edilmiş» o deməkdir ki, keçmiş zamanda mallar təqdim edilərək qaimə-faktura tərtib edilmiş, xidmətlər göstərilərək təhvil-təslim aktı tərtib edilmiş, işlər görülərək təhvil-qəbul aktı (forma 2) tərtib edilmiş olan əməliyyatlar başa düşülməlidir. Lakin hələ bu əməliyyatlar üzrə məbləğlər vergiyə cəlb olunanlar deyildir. Çünki həmin maddədə «əldə edilmiş» ifadəsi cümlənin leksik mənasının istiqamətini dəyişdirir. Yəni təqdm edilmişlərin içərisindən əldə edilmişləri ayrmıq mənası ortaya çıxır. «Əldə edilmiş» o deməkdir ki, təqdim edilmişlərin və ya təqdim edilmişlərə aid edilənlərin içərisindən sadələşdirilmiş vergi ödəyicisinin pul və əşya hesablarına onların əvəzi kimi faktiki daxil olan vəsaitlərin həcmi başa düşülməlidir. Nə qədər ki, təqdim edilmiş mala, işə və xidmətə görə hər hansı vəsait əldə edilməmişdirsə (əvəzi alınmamışdırsa) təqdim edilmişlərə görə vergi ödəməkdən söhbət gedə bilməz.

Vergi ödəyicisi müxtəlif istiqamətlərdən pul və ya əşya əldə edə bilər, lakin hər əldə edilən də vergitutma obyekti deyildir. Məsələn, avans kimi daxil olan vəsait hələ mal, iş və ya xidmət müvafiq sənəd əsasında təqdim edilməyənədək «əldə edilmiş» anlayışına mənaca uyğun gəlmir.

Vergi Məcəlləsində sadələşdirilmiş vergidən azadolmalar maddəsi nəzərdə tutulmamışdır. Bu o demək deyildir ki, sadələşdirilmiş vergidən azad olan gəlirlər yoxdur. Mühasib sadələşdirilmiş vergiyə cəlb olunmayan əməliyyatları və ya daxilolmaları (əldə etmələri) bilməklə vergiyə cəlb olunanları müəyyənləşdirməkdə peşəkarlaşa bilər.

Məsələn, sadələşdirilmiş vergi ödəyicisinin aşağıdakı daxilolmalarına (gəlirlərinə və ya əldə etmələrinə) Vergi Məcəlləsinin 220.1-ci maddəsi üzrə sadələşdirilmiş vergi tətbiq edilmir (siyahı davam edə bilər):

· Alınmış avans məbləğləri, çünki hələ mal, iş və ya xidmət təqdim olunmayıb.

· Borc kimi (qaytarılmaq şərti ilə) daxil olan vəsaitlər, həmçinin qaytarılmaq şərtilə təsisçidən alınmış pul vəsaitləri çünki avans vergitutma obyekti deyildir.

· Təsisçidən təsis payı kimi daxil olan vəsaitlər çünki təsisçi payı vergitutma obyekti deyildir.

· Əmlakın qiymətləndirilməsindən yaranan müsbət məbləğ fərqi, çünki vergitutma obyekti deyildir, həmçinin satışdankənar gəlirlərin və Azərbaycan mənbəyindən gəlirlərin tərkibində nəzərdə tutulmamışdır.

· Qeyri-kommersiya təşkilatlarının pul və ya natura formasında aldıqları qrant vəsaitləri. Kommersiya təşkilatları üçün qrant vəsaiti sadələşdirilmiş vergiyə cəlb oluna bilər, çünki onun məqsədi mənfəət (qazanc) əldə etməkdir.

· Əmlakın icarəyə verilməsi və royalti gəlirləri üzrə əməliyyatları olan vergi ödəyicisinin bütün gəlirləri, çünki Vergi Məcəlləsinin 218.2-ci maddəsinə əsasən qadağan olunur.

· Aksizli mallar istehsal edən vergi ödəyicisinin bütün gəlirləri, çünki Vergi Məcəlləsinin 218.2-ci maddəsinə əsasən qadağan olunur.

· Kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardların bütün gəlirləri.

· Qeyri-dövlət pensiya fondlarının bütün gəlirləri.

· Mükiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (bu Məcəllənin 218.1.1-ci maddəsində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 1000000 manatdan artıq olan vergi ödəyicilərinin bütün gəlirləri.

· Vergi ödəyicisinin avtomobil nəqliyyatı vasitələri ilə Azərbaycan Respublikası ərazisində sərnişin və yük daşımaları üzrə göstərdiyi xidmətlərdən əldə etdiyi vəsaitləri, çunki bu əməliyyatlar üzrə başqa metodla sadələşdirilmiş vergiyə cəlb olunurlar.

· Vergi ödəyicisinin mənzil tikintisi üzrə gördüyü işlərdən əldə etdiyi vəsaitləri, çunki bu əməliyyatlar üzrə başqa metodla sadələşdirilmiş vergiyə cəlb olunurlar.